

# "Bu dünyadan gedər olduq..."

***Dini mənbəələr göstərir ki, həzrət Adəm (ə) 940 il, həzrət Şiys (ə) 900 il, həzrət Nuh (ə) 2300 il, həzrət İbrahim (ə) peyğəmbər 260 il ömür sürmüşlər. Həzrət Nuh (ə) peyğəmbər 950 il camaatı dinə dəvət etmişdir. Sonuncu peyğəmbərimiz Məhəmməd (s) isə cəmi 63 il ömür sürmüş, 40 yaşında peyğəmbərlik risalətinə yetişəndən sonra 23 il xalqı haqqa və imana çağırmış, islamın təbliği ilə məşğul olmuşdur.***

Hər bir insan onu əhatə edən aləmi dərk eləməyə başlayandan sonra bir gün bu dünyadan gedəcəyini, mövcud həyatla vidalaşacağını, öləcəyini də anlayır. Uşaqlıq və gənclik çağlarında ölüm nisbətən az yada düşürsə, ömrün ahıllıq və qocalıq mərhələlərində normal ağıl sahibləri həyatın son anı barədə çox fikirləşir, onun yaxında olduğunu hiss edirlər. Heç də sirr deyildir ki, insanların əksəriyyəti ölümdən qorxur. Müqəddəs kitabımız "Quran"da ölümdən qorxunun səbəbi belə açıqlanır: "Ancaq öncəki işləklərindən bəllidir, ölümü əsla istəməzlər. Zalımları tanıyır Allah. Görürsən, başqalarından və hətta Allaha şərik qoşanlardan da artıq həyat düşgünüdürlər. Hər biri istər ki, min il yaşasın. Uzun ömür əzabdan uzaqlaşdırmaz adamı. *("Qurani-Kərim", Nəriman Qasımoğlunun qələmilə açıqlama, Bakı-1993, səh. 7)*. Təəssüf ki, insanlar istəsələr də, istəməsələr də ölüm hər bir şəxs üçün İlahi tərəfindən verilmiş vaxtı gizli olan qərardır. Bu qərarın gizli saxlanılmasında da bir hikmət vardır. Ulu tanrını qəbul edən insan isə hər an Yaradanın əmrinə hazır olmalı, buyurduqlarını yerinə yetirməlidir. Müqəddəs kitabın "Ənam" surəsinin 2-ci ayəsində deyilir: "Sizi gildən o yaratmış. Sonra əcəl təyin eləmiş sizə. Bəlli olan əcəlsə onun dərgahındadır. Siz isə hələ də şübhədəsiniz *("Qurani-Kərim, səh. 58.)*.

Bu dünya həyatı insanlar üçün bir sınaq meydanı, axirət gününə hazırlıq mərhələsidir. Yer üzünün əşrəfi hesab olunan insanın həyatda ən böyük əməli vəzifəsi Tanrıya inam, etiqad, ibadət və halal yolla sərmayə əldə etməkdir. Bu yolu tutan şəxs mənəvi təkamül prosesini keçirir, kamillik mərtəbəsinə yüksəlir, möminlik dərəcəsi alır. "Quran"ın "Ənfəl" surəsinin 2-ci ayəsində oxuyuruq: "Möminlər o kəslərdir ki, anılan zaman adı Allahın titrəyən ürəkləri, oxunan zaman ayələri onlara, ayələr artırar imanlarını və Rəbbilərinə güvənər onlar" *("Qurani-Kərim", səh. 83.)* Bəli, mömin şəxs təqva sahibi olur, hər bir işində Allaha təvəkkül edir, həyatını ancaq Tanrının buyurduğu şəkildə qurmağa çalışır.

Qələmə aldığımız mövzuda əsas qayəmiz ölüm və ölməzliklə bağlı düşüncələrimizdən bəhs etməkdir. Ölüm dünya həyatında hər bir şəxsin cismani cəhətdən ömrünün sona çatma anıdır. Ölüm kimisinin əbədi olaraq yoxluğu, unudulması, kimisinin isə yeni əbədi həyatının başlanması, ölməzliyə qovuşmasıdır. Peyğəmbərlər, imamlar, şairlər, alimlər, vətən, din, haqq, ədalət yolunda canından keçənlər müvəqqəti dünyadan əbədiyyət aləminə köçüblər və dünya durduqca anılacaqlar, insanlar onların xeyirxah əməllərindən bəhrələnəcəklər.

Yeddi əsr bundan öncə yaşamış türk ədəbiyyatının ən qüdrətli nümayəndəsi Yunus Əmrə yaratdığı olduqca qiymətli bədii nümunələri ilə ölməzliyə qovuşmuş dahi şəxsiyyətlərdən biridir. İnsan həyatının əsas mənasını paklıq, nəciblik, xeyirxahlıq, doğruçuluq, mehribançılıq və elm öyrənməkdə görən şair əsərlərində bu məsələlərin təbliğinə xüsusi diqqət yetirmişdir.

Qadir Allahın bəndələri üçün qərar verdiyi ölüm anına hazırlıq şair tərəfindən bədii nümunələrindən birində çox ibrətamiz şəkildə qələmə alınmışdır. Bu mövzuda yazılmış şeir aşağıdakı misralarla başlanır:

***Bu dünyadan gedər olduq,***
***qalanlara salam olsun,***
***Bizim üçün xeyir-dua***
***qılanlara salam olsun.***
***Əcəl bükə belimizi,***
***söylətməyə dilimizi,***
***Xəstə ikən halımızı***
***soranlara salam olsun.***

*(Yunus Əmrə, əsərləri, "Öndər" nəşriyyatı, Bakı -2004, səh. 242).*



*Qadir Allah Yeri, Göyü, bütün Kainatı, mələkləri xəlq eyləyəndən sonra yer üzünü daha da nurlandırmaq üçün özünün bu dünyada xəlifəsi olan ilk İnsanı - həzrət Adəm babamızı yaratdı. Ulu tanrı xəlq etdiyi və gələcəkdə yaradacağı bəndələrinin hər birinə ömür payı təyin etdi. Dünya tarixindən bəlli olur ki, yaşayışın ilkin mərhələlərində insanlar sonrakı dövrlərlə müqayisədə daha çox yaşamışlar.*

İslam dinində salam vermək bəyənilmiş əməl hesab olunur, təqdir edilir. Salamın savabını qaytarmaq isə vacibi əməldir, yəni salam söyləyənə hökmən cavab verilməlidir, ona borclu qalmaq olmaz. Salam sözünün lüğəti mənası salamatçılıq, sağlamlıq, sülh, əmin-amanlıqdır. Müsəlmanlar arasında səmimiyyət, mehribançılıq yaradan salam haqqında "Quran"da deyilir: "Sizi bir salamla salamlayanı daha gözəl salamla salamlayın, ya da eyniylə salamlayın. Şübhəsiz, hər şeyin hesabını çəkəndir Allah" *("Qurani-Kərim", səh. 42).*

Yunus Əmrə dünyadan köçmək ərəfəsində ətrafdakılarına, onun başına yığışanlara salam söyləyir, onlara sağlamlıq, əmin-amanlıq arzulayır. Biz burada şairin insanlara son dərəcə yüksək məhəbbətinin ifadəsini görürük. Şübhəsiz ki, uzun əsrlərdir bu şeiri oxuyan hər kəs müəllifin ruhuna rəhmət oxuyur, əbədiyyət dünyasına salam göndərir.

Xəstənin görüşünə getmək, yoluxmaq islam əxlaq qaydalarının tərkib hissələrindən biridir. Məhəmməd (s) peyğəmbər buyurmuşdur: "Müsəlmanın müsəlman boynunda haqqı odur ki, görəndə ona salam versin, naxoş olanda görüşünə getsin, öləndə cənazəsini müşayiət etsin". Şair də xəstələnəndə, əcəl belini bükəndə, dili tutulanda onun görüşünə gələnləri, halını soranları salamlayır. Sonrakı beytlərdə deyilir:

***Tənim ortaya açıla,***
***yaxasız köynək biçilə***
***Bizi bir arı vəchiylə***
***yuyanlara salam olsun.***
***Əzrayıl alır canımız,***
***qurur damarda qanımız,***
***Yuyıcağaz kəfənimiz***
***saranlara salam olsun.***

İnsan öləndən sonra cənazə ortaya qoyulur, ona üç hissədən ibarət kəfən biçilir. Yuyularaq qüsl verilir, paklanır və kəfənə tutulur. Şair bu vacibi əməllərin yerinə yetirilməsində iştirak edənlərə də salam göndərir. Çünki onlar hər bir şəxsin haqq dünyasına qovuşmasında müsəlmançılıq borclarını yerinə yetirirlər.

Şeirin sonrakı beytlərində oxuyuruq:

***Sözdür söylənir araya,***
***kimsə dözməz bu yaraya,***
***Yetüb bizi məqbərəyə***
***qoyanlara salam olsun.***
***Bunda hər gələnlər gedər,***
***hərgiz gəlməz yola gedər,***
***Bizim halımızdan xəbər***
***soranlara səlam olsun.***

Dünyadan insan köçməsi qohum-qonşu, dost-aşna, övlad və vərəsələr üçün qəm və kədərə çevrilir. Hamı mərhumun evinə yığışır, təskinlik verir, ölünü qəbir evinə, axirət mənzilinə çatdırırlar. Qəbiristanlıqdan hamı evinə qayıdır, fəqət gedər-gəlməz yola gedəndən başqa. Şair təşrih-cənazə iştirakçılarını, ölüyə rəhmət oxuyanları, onun halından xəbər soranları salamlayır.

Y.Əmrə əsərinin qəhrəmanını Allaha ruhən, mənən bağlı bir insandır. İlahi eşq onda ətrafındakı insanlara da sonsuz məhəbbət yaratmış, qüdrət və əzəmət sahibinin göndərdiyi ölümü xoşluqla qəbul etməsinə səbəb olmuşdur. Çünki Haqqı sevən ona qovuşmağa tələsir. Onun hər bir dərdinə dəva qılan da Haqq özüdür. Şeirin son misraları belə qurtarır:

***Aşiq oldur Haqqı sevə,***
***Haqq dərdinə qıla dəva,***
***Aşıq Yunus söylər sözü,***
***qan-yaş ilə doldu gözü,***
***Bilməyən nə bilsin bizi,***
***bilənlərə salam olsun.***

Yunus Əmrənin əsərində xalq təfəkkürünün əzəməti, xalq kədərinin dərin bəşəri mənası, pak müsəlmanların son istəkləri öz poetik əksini tapmışdır. Şairin qəhrəmanının gözləri qan-yaşla dolmuşdur. Bu gözlərdə həm kədər, həm də sevinc vardır. Doğmalarından ayrıldığına görə kədərlənən şair ulu Tanrıya qovuşduğuna sevinir. Yeddi əsrdir ki, onu "bilməyənlər"də əsərlərini oxuyur, bilir, qadir Allaha sonsuz məhəbbətlə yoğrulmuş fikirlərindən bəhrələnir, böyük şairin dahiliyini dərk edir, pak ruhuna salavat və salam göndərirlər.

**Hacı Bayram**